**Bu gün ölkəmizdə cəmiyyət həyatının hansı sahəsinə nəzər salırıqsa, orada ulu öndər Heydər Əliyevin siyasi müdrikliyi nəticəsində həyata keçirilmiş tədbirlərin nəticələrini görürük. Elə Azərbaycan ictimai-siyasi mühitində özünəməxsus uğurlara imza atmış yerli özünüidarəetmə sisteminin formalaşdırılması da ümummilli liderimizin xalq qarşısındakı danılmaz xidmətlərinin bir istiqamətidir. 2008-ci ildən başlayaraq artıq 10 ildir ki, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələrinə uyğun olaraq ölkəmizin bütün bələdiyyələrində "Azərbaycanda Yerli Demokratiya Həftəsi" tədbirləri keçirilir. Həftələrin keçirilməsində əsas məqsəd bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, yerli özünüidarəetmə proseslərində əhalinin rolunun, imkanlarının, eləcə də həmrəyliyinin artırılmasıdır.**

# Qarşıdakı bələdiyyə seçkiləri günü Azərbaycanda yerli özünüidarəetmə sisteminin 20 yaşı tamam olur



## Dekabrın 23-də xalqımız daha bir ədalətli və şəffaf bələdiyyə seçkilərində iştirak edəcək



Əlbəttə, bələdiyyə idarəetməsi Azərbaycandan qabaq dünyanın çox ölkəsində olub və uzun illər fəaliyyət göstərib. Ancaq onun kommunist ideologiyasından yenicə xilas olmuş bir ölkəyə məhz dünya ölkələrində olduğu şəkildə gətirilməsi mümkün deyildi. Heydər Əliyev bu sistemin Azərbaycan çərçivəsində də səmərəli fəaliyyət göstərməsi üçün bir çox məqamları diqqətdə saxlamış, yerli şəraiti, mental xüsusiyyətləri, xüsusən, sovet cəmiyyətindən qalmış stereotiplərin dağıdılmasını nəzərə alaraq, beynəlxalq təcrübəyə əsaslanan bir idarəetmə sistemi yaratmışdı. Maraqlıdır ki, bu il dekabrın 23-də keçiriləcək seçkilər də məhz ilk bələdiyyə seçkilərimizin 20 yaşının tamam olduğu günə təsadüf edir.

Dekabrın 23-də xalqımız iyirmi il Azərbaycanda fəaliyyət göstərmiş yerli özünüidarəetmə sisteminin növbəti simalarını seçmək üçün səsvermə məntəqələrinə gedəcək və 1993-cü ilin payızından bəri nümayiş etdirdiyi seçici mütəşəkkilliyini yenə də ortaya qoyacaq.

Bu seçkilərə hazırlıq prosesi çərçivəsində həyata keçirilmiş bəzi tədbirləri xatırlatmaq məqsədi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) saytına nəzər saldım. Həmin saytda gördüyüm materiallar təkcə bir jurnalist kimi yox, həm də yaşlı ölkə vətəndaşı kimi məndə böyük qürur hissi yaratdı. MSK seçkinin ədalətli, şəffaf, operativ, beynəlxalq təcrübəyə cavab verən şəkildə, seçicilərin, müşahidəçilərin və namizədlərin maraqlarına cavab verən səviyyədə keçirilməsi üçün nə qədər təlimatlar hazırlayıb, əyani vəsaitlər ərsəyə gətirib, məlumatlandırıcı və maarifləndirici tədbirlər keçiribmiş. Doğrusu, əməkdaşlarımız həmin sayta istinadən, o sənədlərin və tədbirlərin əksəriyyəti barədə söz açıblar. İndi isə seçkilərə çox qısa vaxt qalıb və həmin sənədlər də, tədbirlər də artıq " öz işlərini görüblər" və odur ki, onları yenidən xatırlatmağa ehtiyac yoxdur.

Xatırladılmalı məqam isə odur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son on altı ildə gələcəyə hesablanmış əhatəli dövlət proqramlarının, genişmiqyaslı sosial və infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş, demokratik proseslərə güclü təkan vermiş, onun beynəlxalq aləmdə nüfuzunu gücləndirmişdir. Yuxarıda xatırlatdığımız kimi, artıq 20 ildir ki, ölkəmizdə bələdiyyə sistemi fəaliyyət göstərir. Bu qurumlar Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə özünün inkişaf yolunu keçir, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa, cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görür.

Xatırladaq ki, bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi ilk dəfə olaraq məhz ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995- ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdı. Ümummilli liderin müəyyən etdiyi siyasi kursun Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində dövlətin idarəetmə sistemi daha da təkmilləşdirilmiş, bununla yanaşı, yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin səlahiyyət və fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilmişdir. Odur ki, bu gün respublikamızda bələdiyyə institutu tam olaraq formalaşmış, ölkənin şəhər, qəsəbə və kəndlərində vətəndaşlarımızın rifahı naminə sosial-iqtisadi inkişafın təmin olunmasında fəal iştirak edən yerli özünüidarəetmə sistemi bərqərar edilmişdir.

Rəsmi sənədlərdə qeyd edilir ki, ölkədə yerli özünüidarəetmə siyasətini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsində Bələdiyyələrlə iş sektoru, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi üçün Milli Məclisdə Regional məsələlər komitəsi, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirmək, onlara metodoloji yardım göstərmək və maarifləndirilməsini təmin etmək məqsədi ilə Ədliyyə Nazirliyində Bələdiyyələrlə İş Mərkəzi, onların fəaliyyətinin əlaqələndirilməsinə, həmin fəaliyyətin beynəlxalq hüquq normalarına və mövcud qanunvericiliyə uyğun qurulmasına və ortaya çıxan problemlərin birgə həll edilməsinə kömək göstərmək yolu ilə yerli özünüidarənin möhkəmlənməsi və inkişaf etdirilməsi üçün Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrinin milli assosiasiyaları yaradılmışdır.

Belə ki, ölkədə bələdiyyələrin fəaliyyətini tənzimləyən "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə üzvünün statusu haqqında", "Bələdiyyələrin nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" və digər əhəmiyyətli qanunlar qəbul olunmuş, Azərbaycan Respublikasının Torpaq, Su, Mülki, Seçki, Vergilər, İnzibati Xətalar məcəllələrinə bələdiyyələrlə bağlı müvafiq müddəalar daxil edilmişdir.

Bildirilir ki, Azərbaycan bələdiyyələrinin Türkiyə, Gürcüstan, Almaniya, Avstriya, Latviya, Litva, Estoniya, Rusiya kimi ölkələrin bələdiyyə orqanları və onların yaratdıqları milli ittifaq və birlikləri ilə də sıx əməkdaşlıq əlaqələri qurulub, qardaşlaşma haqqında 30-a yaxın protokol və saziş imzalanıb, qarşılıqlı səfərlər təşkil edilib, qardaşlaşmış bələdiyyələr arasında təcrübə mübadiləsi həyata keçirilir. Yəni Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilmiş, mükəmməl qanunvericilik bazası və institusional təsisatlar yaradılmış, bələdiyyə institutu tam formalaşmışdır. Məhz ona görə də ölkədə keçirilən bələdiyyə seçkilərinə həm əhalinin, həm də beynəlxalq təşkilatların marağı ildən-ilə artır.

Yeri gəlmişkən, 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yaranmış seçki mübahisələrinin həllinə dair keçirilən regional seminar-müşavirələrdə müxtəlif məsələlər -- "Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası", "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" və "Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" mövzularında məruzələr dinlənilib.

Əməkdaşlarımızın Mərkəzi Seçki Komissiyasından və dairə seçki komissiyalarından aldığı son məlumatların hər birində qeyd edilir ki, ölkə ictimaiyyəti də, dövlət qurumları da 23 dekabr bələdiyyə seçkilərinin ədalətli və şəffaf keçirilməsinə tam hazırdır. Dövlət digər seçki və referendumlarda olduğu kimi, bu seçkilərdə də çoxsaylı müşahidəçilərin iştirakına şərait yaradıb.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***